## Qarabağ hadisələrinə həsr olunmuş roman və hekayələr




**Yazıçı Kamil Əfsəroğlunun "Tüfəng açıldı" roman və hekayələr kitabı çap edilib.**

Kitaba müəllifin son illərdə yazdığı əsərlər daxildir. Kitab "İt qanı" romanı ilə açılır. Bu roman Rusiyanın "Don" jurnalında da dərc olunub.

Romanın süjeti Qarabağ hadisələri üzərində qurulub və real olaylar, tarixi faktlar əsərdə bədii həllini tapıb. Yazıçının bu əsərdə də realizm ənənələrinə sadiq qalması, həyat hadisələrini ədəbiyyata gətirmək bacarığı, maraqlı obrazlar qalereyası yarada bilməsi, həmçinin dramatizm, kolliziya və konfliktlərdən doğan situasiyalar əsəri oxunaqlı və maraqlı edir, insanları düşündürür.

Kitaba yazıçının müxtəlif illərdə qələmə aldığı "Soyuq ocaq", "Qladiator", "Tayqulaq", "Çat", "Nırx", "Tüfəng açıldı", "Burulğan" və digər hekayələri də daxildir.

Yazıçının hekayələri Rusiya, Belarus, Özbəkistan, Türkmənistan və Türkiyədə çap olunaraq müəllifinə böyük şöhrət qazandırıb.